# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 3 (1450), 2 - 8 iyun 2020-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*


## Ölkəmizdə ilk yarışı Azərbaycan Velosiped İdmanı Federasiyası keçirəcək

Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq icazəsindən sonra ölkəmizdə birinci yarışı Azərbaycan Velosiped İdmanı Federasiyası (AzVİF) keçirəcək. Turnir iyunun 6-da və ya 7-də təşkil olunacaq. Federasiyanın mətbuat katibi yarışın Respublika Velotrekində təşkilinin mümkünlüyünü vurğulayaraq deyib: "Bunun trek və ya şose yarışı olacağına aydınlıq gələcək. Yarışı Velotrekdə də, Veloparkda da keçirə bilərik. Amma turnirin həftəsonunda olacağı dəqiqdir. Əsas məqsəd ondan ibarətdir ki, karantin dövründə idmançıların ev şəraitində necə məşq etdiklərini görək. Biz onlara velosiped və digər avadanlıqlar vermişdik ki, ev şəraitində formalarını saxlasınlar. Bir növ idmançıların fiziki durumlarını yoxlamaq niyyətindəyik".

Federasiya rəsmisi hələ yarışın adını müəyyənləşdirmədiklərini də sözlərinə əlavə edib: "Bu, Bakı və ya Federasiya Kuboku ola bilər. İyundakı yarışlar çox vacibdir. Çünki iyulun 1-dən beynəlxalq yarışlar bərpa olunur. Qarşıdakı ay ərzində mümkün qədər çox turnir keçirəcəyik ki, beynəlxalq yarışlara hazır olaq".

Qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargah mayın 31-də saat 00:00-dan etibarən açıq məkanlarda idman yarışlarının keçirilməsinə icazə verib. 2020-ci ilin təqviminə əsasən, AzVİF-in birinci daxili yarışı martın 7-8-də təşkil edilməli idi, lakin koronavirus səbəbindən təxirə salınıb. Həftəsonu keçiriləcək turnir federasiyanın mövsümdə birinci daxili tədbiri olacaq.






## Olimpiya komplekslərində məşqlərə icazə verildi

Gənclər və İdman Nazirliyinin balansında olan Olimpiya İdman komplekslərinin və digər idman təyinatlı obyektlərin açıq havada yerləşən meydança və qurğuları əhalinin istifadəsinə verilir. Bu barədə Gənclər və İdman Nazirliyinin Nazirlər Kabineti yanında Operativ Qərargahın mayın 29-da növbəti mətbuat konfransında açıq havada idman yarışlarının keçirilməsinin mümkünlüyünü vurğulanmasını əsas götürərək yaydığı açıqlamada qeyd olunub.

Bildirilib ki, federasiyalar tərəfindən Gənclər və İdman Nazirliyinə edilən sifarişlər nəzərə alınaraq, Nazirlər Kabineti yanında Operativ Qərargahın razılığı əsasında idmançıların yoxlanılması, onların xüsusi karantin qaydalarına əməl etmələri və federasiyalar tərəfindən nazirliyə gündəlik hesabatların verilməsi şərti ilə idman növləri üzrə yığma komandaların qapalı şəraitdə müxtəlif Olimpiya İdman komplekslərində məşqlərinə icazə verilib.

İdmançıların regionlardakı Olimpiya İdman komplekslərinə məşqlər üçün ezam olunmaları xüsusi icazə qaydalarına (ezamiyyə icazəsi) əsasən aparılacaq.

## Anons


*Dünya Badminton Federasiyası Tokio-2020-nin yenilənmiş təsnifat sistemini açıqlayıb* — Səh. 2

Paralimpiya komitəsində audiokonfrans keçirilib — Səh. 2

*Voleybolçularımıza maliyyə yardımı ediləcək* — Səh. 2

*Milli komandanın açıq havada məşqləri bərpa olunub* — Səh. 2

*Şabranda stolüstü tennisə böyük maraq var* — Səh. 4

Sevimli peşəsinə sadiq olan cəsur güləşçi — Səh. 5

*Onlayn şahmat turnirinin qalibi müəyyənləşdi* — Səh. 5

Ulduzların səmadan enişi, yaxud bir qəzanın gizli məqamları — Səh. 6

*124 illik marafon ləğv olundu* — Səh. 6

AFFA: Klublar Komitəsinin videokonfrans formatında növbəti iclası keçirilib — Səh. 7


## *Olimpizm*

### *"Tokio-2020 COVID-19-a qalib gələn Olimpiya Oyunları kimi tarixə düşəcək"*

Beynəlxalq Olimpiya Komitəsi (BOK) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) arasında yeni əməkdaşlıq sazişi imzalanıb.

BOK-un rəsmi saytında yayılan xəbərdə bildirilir ki, ÜST-nin Cenevrədəki qərargahında imzalanan saziş tərəflər arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Əsas məqsəd dünyada sağlamlığın fiziki fəallıq, idman və fəal istirahət də daxil olmaqla, sağlam həyat tərzinin təbliğidir. Sazişə əsasən, BOK və ÜST idman vasitəsilə sağlam cəmiyyətin təmin olunması naminə Davamlı İnkişaf Məqsədi 3 ("Yaxşı sağlamlıq və rifah") Proqramı əsasında qeyri-yoluxucu xəstəliklərin (NCD) qarşısının alınmasına töhfə vermək barədə öhdəlik götürüblər.



BOK-un prezidenti Tomas Bax sazişin əhəmiyyətini qeyd edərək bildirib: "Mövcud böhranla əlaqədar ötən bir neçə ayda idman və fiziki fəaliyyətin sağlamlıq üçün nə qədər əhəmiyyətli olduğunu gördük. İdman insanın xilaskarıdır. Səhiyyənin dövlət siyasətində daha çox rol oynayacağı postkoronavirus cəmiyyətinin problemlərinin həllində ÜST-nin məsləhətlərindən faydalanmağa məcburuq. BOK dünya ölkələrini idmanı böhrandan sonrakı dəstək proqramlarında iştirak etməyə çağırır. Çünki NCD-lərin, eyni zamanda, yoluxucu xəstəliklərin profilaktikasında idmanın vacib rolu danılmazdır".

ÜST-nin Baş direktoru Tedros Qebreyesus isə deyib: "Düşünürəm ki, dünyamız pandemiya ilə mübarizədə qlobal birlik və həmrəylik nümayiş etdirsə, növbəti Olimpiya Oyunlarına qədər müsbət nəticələr əldə edə bilərik. Ümid edirik ki, Tokio-2020 COVID-19 xəstəliyinə qalib gələn Olimpiya Oyunları kimi tarixə düşəcək".

### *Olimpiya təsnifat dövrünün vaxtı dəqiqləşdi*

Beynəlxalq Ağır Atletika Federasiyasının (İWF) yenilənmiş təqvimi təsdiqlənib. Beynəlxalq Olimpiya Komitəsi (BOK) tərəfindən təsdiqlənən yarışların təqvimində Tokio-2020 Yay Olimpiya Oyunlarına təsnifat dövrü də əksini tapıb.

Bu dövr 2020-ci il oktyabrın 1-də bərpa olunacaq və 2021-ci il aprelin 30-dək davam edəcək. Koronavirus pandemiyası üzündən ləğv olunan təsnifat xarakterli yarışlar digərləri ilə əvəz olunacaq.Olimpiadaya vəsiqə qazanmaq istəyən idmançılar 2018-ci il noyabrın 1-dən təsnifat dövrünün sonunadək 6 turnirdə iştirak etməlidir. Atletlər bu dövrün üç bölümündən hərəsindən heç olmasa bir yarışa qatılmalıdır. Əvvəlki turnirlərdəki nəticələr də idmançıların hesabında saxlanılıb.

Qeyd edək ki, 2020-ci il iyulun 24-dən avqustun 9-dək keçirilməli olan Tokio-2020 koronavirus pandemiyası səbəbindən 2021-ci il iyulun 23-dən avqustun 8-dək təşkil olunacaq.

### *Daha bir dünya çempionatı təxirə salınır*

Koronavirus pandemiyası daha bir nüfuzlu idman yarışının keçirilməsinə əngəl yaradıb. 2021-ci ilin fevralında keçirilməli olan dağ xizəyi üzrə dünya çempionatı bu səbəbdən də təxirə salınacaq.

Bunu İtaliya Milli Olimpiya Komitəsinin prezidenti Covanni Malaqo açıqlayıb. O bildirib ki, Kortina Dampetso şəhərində təşkil olunmalı yarış bir il sonraya keçiriləcək.

Onun sözlərinə görə ölkənin qış idman növləri federasiyası mundialın 2022-ci ilin martına keçirilməsi ilə bağlı rəsmi müraciət hazırlayıb. Bu sənəd Beynəlxalq Xizək İdmanı Federasiyasına təqdim olunacaq.

## *Dünya Badminton Federasiyası Tokio-2020-nin yenilənmiş təsnifat sistemini açıqlayıb*

Ötən həftə yenilənən 2020-ci il yarış təqviminə əsasən, Dünya Badminton Federasiyası növbəti il Tokioda keçiriləcək Yay Olimpiya və Paralimpiya Oyunlarının bu idman növü üzrə təsnifat nizamnaməsinə dəyişikliklər edib.



Dəyişikliklərdə əsas məqsəd koronavirus pandemiyasına görə pozulmuş təsnifat mərhələsini ədalətli şəkildə yeniləməklə idmançıların təxirə salınan Olimpiya Oyunlarında iştirak hüququnu təmin etməkdir. Edilən dəyişikliklər Beynəlxalq Olimpiya və Paralimpiya Komitələri tərəfindən təsdiqlənib.

Dünya Badminton Federasiyasının baş katibi Tomas Lund deyib: "Atletlər Komissiyası ilə sıx və dəyərli məsləhətləşmələr sayəsində Olimpiya və Paralimpiya Oyunlarına ən yaxşı təsnifat sistemini müəyyənləşdirdik. Bu atletlər üçün ən ədalətli həll yoludur və badminton idman növünün COVID-19 pandemiyasının yaratdığı vəziyyətdən çıxarmaq üçün bu turnirlərin təşkili bizim əsas və başlıca vəzifəmiz olacaq. Beynəlxalq turnirlərimizi 2020-ci ilin sonlarına yaxın bərpa etməyi planlaşdırırıqsa, olimpiya təsnifat prosesinə yalnız 2021-ci ildə, COVID-19 pandemiyasına görə tətbiq edilən səyahət və digər məhdudiyyətlərin aradan götürülməsi zəmanəti olduqdan sonra başlaya biləcəyik".

Əvvəlki olimpiya təsnifat dövründə qazanılmış reytinq xalları "Tokio yolu" reytinq cədvəlində saxlanılacaq. Uzadılmış Olimpiya təsnifat dövrü 2021-ci ilin 1-17-ci həftələrini (yanvar-mayın birinci həftəsi) əhatə edəcək və məhz pandemiyaya görə təxirə salınan və ya ləğv olunan turnirlər seçim edilməklə təşkil olunacaq. Yeni olimpiya təsnifat dövründə keçiriləcək turnirlər 2021-ci ilin 17-ci həftəsinədək yekunlaşmalıdır.

Dünya Badminton Federasiyasının 2021-ci ilin yekun yarış təqvimi koronavirus pandemiyasına görə bütün şərtlər nəzərə alındıqdan sonra açıqlanacaq.

Xatırladaq ki, Yay Olimpiya Oyunları 2021-ci ilin 23 iyul-8 avqust tarixlərində keçiriləcək.

## Voleybolçularımıza maliyyə yardımı ediləcək

Beynəlxalq Voleybol Federasiyası (FIVB) koronavirus pandemiyası səbəbindən maliyyə problemi ilə üzləşən oyunçulara dəstək məqsədilə yardım fondu təsis edib. FIVB prezidenti Avi Qrasa və İdmançılar Komissiyasının irəli sürdüyü təşəbbüs İcraiyyə Komitəsi tərəfindən təsdiqlənib.

Maliyyə dəstəyindən beynəlxalq federasiyanın bayrağı altında keçirilən yarışların təxirə salınması səbəbindən çətinlik çəkən peşəkar voleybolçular yararlana biləcəklər.



"Yardım fondu hazırda əsas ehtiyaclarını ödəyə bilməyənlər üçün nəzərdə tutulub. Mövcud qlobal vəziyyət nəzərə alınaraq, ayrılan vəsaitin miqdarı hər bir idmançının durumu hərtərəfli təhlil olunduqdan sonra müəyyən ediləcək. Vəsaitlərin ədalətli bölüşdürülməsi üçün xüsusi İşçi Qrupu yaradılıb. Müraciətlər 23 iyun tarixinə qədər təqdim olunmalıdır. Vəsait almaq istəyən voleybolçuların keçmişdə dopinqlə bağlı problemi olmamalıdır. Bundan əlavə, yardım 2018/19 mövsümündə müəyyən sayda turnirlərdə iştirak edən idmançılara ediləcək. Həmçinin tələblər arasında FIVB-nin hələlik dəqiqləşdirmədiyi meyarlar da var", - məlumatda bildirilib.

Qeyd edək ki, voleybol üzrə Millətlər Liqasında 2020 mövsümü pandemiya səbəbindən ləğv olunub.

## *Milli komandanın açıq havada məşqləri bərpa olunub*

Azərbaycan Atletika Federasiyası milli komandanın açıq havada məşqlərini iyunun 1-də bərpa edib. Federasiyanın mətbuat katibi İradə Mehdiyeva "Olimpiya dünyası" qəzetinə bildirib ki, milli komandanın baş məşqçisi Bəhruz Salehlinin və məşqçi Ziyad Xəlfəyevin rəhbərliyi ilə keçən məşqlərə ilk növbədə üçtəkanla tullanma növündə mübarizə aparan idmançılar qatılıblar. Atletlər arasında Avropa çempionu Nazim Babayev də yer alıb. Hazırlıq prosesi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda təşkil olunub.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargah mayın 31-dən açıq məkanlarda idman yarışlarının keçirilməsinə icazə verib.



## Paralimpiya komitəsində audiokonfrans keçirilib

İyunun 1-də Uşaq Paralimpiya Komitəsinin "Valideyn klubu"-nun audiokonfrans şəklində iclası keçirilib. İclasda bir sıra məsələlər müzakirə edilib və klubun reqlamenti təsdiq olunub. "Valideyn klubu" uşaq paralimpiyaçılarının təlim-məşqlərində iştirak edəcək, asudə vaxtlarını, könüllülərlə iş və psixoloji konsultasiyalarının təşkilində fəaliyyət göstərəcək. Təşkil olunan audiokonfransda Azərbaycan Milli Paralimpiya Komitəsinin baş katibi Kamal Məmmədov iştirak edib.

Qeyd edək ki, könüllülərlə işin təşkilində "BİR könüllü" , DOST, Miqrasiya və ASAN könüllüləri ilə uşaq paralimpiyaçıların görüşü, müxtəlif tədbirlər və lahiyələrin həyata keçirilməsi nəzərdə tutulub.

Həmçinin iclasda 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü də xüsusi qeyd olunub.





## Avropa Güləş Federasiyasının prezidenti vəfat edib

Avropa Güləş Federasiyasının (UWW-EU) prezidenti Tseno Tsenov uzun sürən xəstəlikdən sonra 80 yaşında dünyasını dəyişib.

Güləşin inkişafında böyük xidmətləri olan mərhum xüsusən 2013-cü ildə bu idman növünün Olimpiadanın proqramında qalmasında böyük əmək sərf etmişdi.

Qeyd edək ki, Sofiya Universitetinin Tarix və Arxitektura fakültəsini bitirən T.Tsenov Bolqarıstan Güləş Federasiyasında baş katib, vitse-prezident və prezident vəzifələrində çalışmaqla yanaşı, 1978-ci ildən köhnə adı Avropa Güləş Şurası olan qurumun İcraiyyə Komitəsinin üzvü olub. 1996-cı ildən isə bu quruma başçılıq edib. Təcrübəli güləş mütəxəssisi 7 dəfə bu qurumun prezident seçkilərində qalib gəlib. T.Tsenov həmçinin 2002-ci ildən Dünya Güləş Birliyinin (UWW) Büro üzvü idi.

Azərbaycan Güləş Federasiyası bu ağır itkidən kədərləndiyini bildirərək mərhumun ailə üzvlərinə, Bolqarıstan Güləş Federasiyasına, Avropa Güləş Federasiyasına və Dünya Güləş Birliyinə başsağlığı verib.

## Federasiya prezidentinə yeni vəzifə verildi



"WBC Muay-tay" təşkilatının ölkəmizdəki nümayəndəsi seçilib.

Bu vəzifəyə Azərbaycan Döyüş Federasiyaları Assosiasiyasının (ADFA) prezidenti Azər Həsənsoy layiq görülüb.

Qeyd edək ki, WBS peşəkar boks üzrə dünyada ən böyük təşkilatdır. Artıq neçə illərdir ki "WBC Muay-tay" təşkilatı dünyada və qitələrdə bir sıra iri miqyaslı yarışları təşkil edirlər.



## *Paytaxtımız oktyabr ayında Avropa çempionatına ev sahibliyi edəcək*

"Digər federasiyalar kimi, Azərbaycan Sumo Federasiyasının üzvləri və idmançıları da karantin rejiminə əməl edirlər. Zallarımız bağlı olduğuna görə idmançılarımız məşqlərini ev şəraitində keçirlər".

"Olimpiya dünyası" qəzetinə açıqlamasında Avropa Sumo Federasiyasının vitse-prezidenti, Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayev bu fikirləri bildirib.

"İdmançılarımızın fiziki hazırlığı bizim üçün çox vacibdir. İstəmirik ki, illərlə qazanılan əziyyət bir-iki ay ərzində hədər getsin. İdmançılarımız da xüsusi karantin rejimi olmasına baxmayaraq, qida rasionlarına və fiziki hazırlıqlarına riayət etməyə çalışırlar. Düzdür, sparinq məşqlər olmasa da, ev şəraitində məşq edərək formalarını qorumağa çalışırlar. Bir sözlə, idmansız qalmırlar. İnanıram ki, koronavirus pandemiyası tez bir zamanda bitəcək və həyat yenidən öz axarına düşəcək", - deyə Samir Abdullayev qeyd edib.

Federasiya rəhbəri aprel ayında Bakıda keçirilməsi planlaşdırılan Avropa çempionatının da təxirə salındığını bildirib.

"Bildiyiniz kimi aprel ayında paytaxtımızda sumo üzrə Avropa çempionatı keçirilməli idi. Biz bu yarışa çox ciddi hazırlaşmışdıq. Lakin mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq, bir sıra idman yarışları kimi, Bakıdakı qitə çempionatı da təxirə salındı. Artıq çempionatın keçiriləcəyi yeni tarix də müəyyənləşib. Çempionatın yeni tarixi ilə bağlı Avropa Sumo Federasiyasının prezidenti Dariuş Rozumla danışıqlar aparıldı. Mövcud şərait nəzərə alınaraq Avropa çempionatının vaxtı oktyabrın 23-25-i tarixlərinə keçirilib. Qeyd edim ki, bu il sentyabr ayının əvvəlində Polşada keçirilməsi planlaşdırılan dünya çempionatı da təxirə salınıb. Bu yarışın keçirilmə tarixi isə gələn ilin sentyabr ayına təyin olunub", - deyə Samir Abdullayev bildirib.

1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

# Sağlam həyat tərzi uşaqların da mənəviyyatının əsasını təşkil edir

***Müstəqilliyimiz möhkəm təməl üzərində qurulub. Ölkəmiz günügündən inkişaf edir. Hazırkı şəraitdə uşaqların və yeniyetmələrin fiziki inkişafına yüksək səviyyədə diqqət və qayğı göstərilir.***

***Hamıya yaxşı məlumdur ki, kiçik yaşlarında bədən tərbiyəsi hərəkətləri ilə məşğul olan uşaqların qaməti formalaşır, əzələləri getdikcə möhkəmlənir, sinir sistemi və xəstəliklərə qarşı bədənin müqavimət gücü artır. Təbii olaraq qarşıya belə bir sual çıxır: uşaqların bədən tərbiyəsi və idmana həvəsləndirilməsi yollarını və formalarını hansı yollarla həyata keçirmək, onlarda idmana həvəsi necə yaratmaq olar?***

Bədən tərbiyəsi və idman böyüməkdə olan nəslin sağlamlığı və fiziki hazırlığında vacib məsələlərindən biridir. Uşaqların sağlamlığı, fiziki inkişafında gimnastika, ümumi inkişafetdirici hərəkətlər, yeriş və qaçış, tullanma, dırmanma, akrobatika, rəqs hərəkətləri, kross hazırlığı ilə yanaşı, mütəhərrik oyunlar da mühüm rol oynayır. Tanınmış mütəfəkkirlər və pedaqoqlar yetişməkdə olan nəslin mənəvi kamilliyində, fiziki yetkinliyində idmanın kollektiv növlərinin, xüsusən, mütəhərrik oyunların əhəmiyyətinin vacibliyini qeyd edirlər. Lakin bu tədbirlərin harada keçirilməsi və necə keçirilməsi şərtləri ortaya çıxır. Hansı uşaq istəməz ki, boş vaxtlarını, tətil günlərini düşərgələrdə, təbiətin qoynunda, dağda, meşədə, turist yürüşlərində keçirməsin? Hansı



valideyn istəməz ki, övladı günəş, su, hava kimi təbiətin əvəzsiz nemətlərindən bəhrələnib sağlam və gümrah böyüməsin? Hansı müəllim istəməz ki, yay tətilindən geri dönən şagirdləri məktəbə zəngin təəssüratla, xoş ovqatla, yeni həvəslə qayıtmasınlar? Şübhəsiz ki, yuxarıda qeyd olunanları hamı istəyir. Bu arzuların həyata keçməsi üçün çalışmaq, zəhmət çəkmək lazımdır.

### Dövlətimiz tərəfindən görülən işlərin əsasında uşaqların fiziki sağlamlığının təmin edilməsi dayanır

Cəmiyyətin ən başlıca vəzifələrindən biri insanların sağlamlığını təmin etməkdən ibarətdir. Buna görə də Azərbaycan dövləti böyüyən nəslin sağlamlığını daim diqqət mərkəzində saxlayır. Xalqımız müstəqilliyini yenidən bərpa etdikdən sonra ictimai həyatın digər sahələrində olduğu kimi, fiziki tərbiyənin də tarixi ənənələr fonunda inkişafı, fiziki mədəniyyətin dirçəlməsi, böyüyən nəslin milli mentalitetimizə müvafiq tərbiyə edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməyə başlandı. Bu taleyüklü vəzifəni layiqincə həyata keçirmək üçün Azərbaycan dövləti etibarlı qarant rolunu oynayaraq sözdə və əməldə sağlamlığın strateji mahiyyət daşıdığını bəyan etdi, onun bütün məsuliyyətini və ağırlığını öz üzərinə götürdü. Bu zərurəti doğuran amillərdən biri dövlət quruculuğu sahəsində uğurların qoruyucusu və xələfləri olan gənclərin sağlamlığının təmin olunması idi. Müstəqil Azərbaycan dövlətini qurub möhkəmləndirmək və vətəni layiqincə müdafiə etmək məhz bu amillərlə şərtlənir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin dediyi kimi: “Biz bu gün yaşayarkən, müstəqil dövlətimizi qurarkən gələcək nəsillərimiz barədə düşünməliyik ki, bizdən sonra gələn nəsillər bizim dövrümüzdəki nəsildən daha sağlam olsun. Biz buna nail olmaq üçün idmana, bədən tərbiyəsinə çox ciddi fikir verməliyik. Hesab edirik ki, biz bu sahədə bir çox işlər görməliyik, bir çox tədbirlər həyata keçirməliyik”.

Uşaq, yeniyetmə və gənclərin fiziki və mənəvi sağlamlığının təmin olunması müstəqillik dövründə ən ümdə ictimai əhəmiyyət kəsb edən məsələ kimi həmişə diqqət mərkəzində saxlanılmış və qəbul edilən müvafiq qərarlarda öz əksini tapmışdır. Yetişməkdə olan nəslin sağlamlığını təmin etmək məqsədilə bir tərəfdən təlim-tərbiyə müəssisələrində bədən tərbiyəsi və idmanın inkişafına dövlət qayğısı göstərilir, tədris planları yenidən nəzərdən keçirilir, digər tərəfdən isə idman-sağlamlıq komplekslərinin şəbəkəsi genişləndirilir. Dövlətimiz tərəfindən görülən bu tədbirlərin hər birinin əsasında uşaqların fiziki sağlamlığının təmin edilməsi dayanır.

### Valideynlər uşaqlarını sağlam həyat tərzinə alışdırmaq üçün nə etməlidirlər?

Gənc nəslin sağlam formalaşması, onların düzgün tərbiyə olunması xalqın mənəviyyatının əsasını təşkil edir. İnsanın mənəvi və fiziki sağlamlığında mühüm rol oynayan idmanın geniş miqyasda yayılması, kütləviləşməsi və yüksək səviyyədə inkişafı üçün uşaq və yeniyetmələrin idmana fəal surətdə cəlb olunması vacib məsələdir. Gənc nəslin fiziki və mənəvi cəhətdən inkişafında, onların sağlamlığının təmin edilməsində, intellektual və mədəni səviyyəsinin yüksəldilməsində, vətənin müdafiəsinə hazır olan mərd və cəsur insanlar kimi yetişməsində idmanın, bədən tərbiyəsinin rolu əvəzsizdir. İdman uşaqların əxlaqına da müsbət təsir göstərir. Əxlaq deyəndə, hər şeydən əvvəl, insanın tərbiyəsi, davranışı, onun cəmiyyətdə özünü necə aparması yada düşür. Əxlaq insanlar arasında humanist əlaqələri tənzimləyən davranış və fəaliyyətin ideya, prinsip, qanun, norma və qaydalar sistemidir. Pedaqoqlar mənəvi-əxlaqi tərbiyənin əsas vəzifəsi kimi uşaqlarda xeyirxahlıq və nəciblik hisslərinin, uşaqların insan əxlaqına uyğun olaraq yaşaması, fəaliyyət göstərməsi, cəmiyyətin əxlaq normalarına uyğun ruhda tərbiyə edilməsi, onların şüur, hiss və əxlaqının cəmiyyətin tələblərinə uyğun yönəldilməsi, şəxsiyyət kimi formalaşdırılmasında görürlər.

Təcrübələr göstərir ki, uşaqlara bağça, məktəb yaşlarından etibarən idmanla, bədən tərbiyəsi ilə məşğul olmağın faydasını başa salmaq, onlara bu vərdişləri aşılamaq lazımdır. Valideynlər uşaqlarını sağlam həyat tərzinə alışdırmaq üçün onları piyada gəzməyə, avtobusdan az istifadə etməyə, təmiz havada çox olmağa alışdırmalıdırlar. Təbii ki, valideynlərin səyi nəticəsində uşaqlarda getdikcə fiziki yüklənməyə vərdiş yaranır. Uşaqların valideynləri ilə birgə gəzintiyə çıxması, şəhərin mədəni, tarixi abidələri ilə tanış olması, velosipedlə gəzintiyə çıxmaları müsbət nəticələr verir. Yayda dəniz sahilinə getmək, dənizdə çimmək uşaqların sağlamlığı üçün əsas şərtlərdəndir. Bunun üçün ölkəmizin coğrafiyası çox əlverişlidir. Xəzər dənizinin suyu, qumu, havası sağlamlığın əsil dərmanıdır.

Tədqiqatlar göstərir ki, uşaqlara zorla nəyisə aşılamağın, onları nəyəsə məcbur etməyin nəticəsi yaxşı olmur. Əksinə, uşaqlarla yumşaq, mülayim rəftar edəndə, hər şeyi təmkinlə başa salanda onlar daha anlayışlı olurlar. Valideynlər istəyirlər ki, onların övladları gümrah, fiziki və mənəvi cəhətdən sağlam olsunlar, vətənə, xalqa faydalı övlad kimi yetişsinlər. Yəni əsası odur ki, onlar fiziki cəhətdən sağlam, mənəvi cəhətdən kamil insan, vətəndaş kimi böyüsünlər. İdmanla məşğul olmaq uşağın yalnız sağlamlığı üçün deyil, həm də, onun xarakterinin formalaşması üçün çox faydalıdır.

İdman məşğələləri uşaq və gənclərdə özünəinam hissini artırır, məqsədyönlülük, inam, qətiyyətlilik və əməksevərlik kimi keyfiyyətlərin aşılanmasında əvəzsiz rol oynayır. İdman insanları təkcə fiziki cəhətdən deyil, həm də mənəvi cəhətdən kamilləşdirir. İdmanla məşğul olan uşaqlar əksər hallarda yaşlarından sərbəst olmalarına və müstəqil qərar qəbul etmək bacarığına görə fərqlənirlər.



### Sağlam uşaq daim ətraf aləmlə maraqlanır

Sağlam olmaq özünü həm fiziki, həm də mənəvi cəhətdən yaxşı, gümrah hiss etmək deməkdir. Pedaqoqlar uşaqların tərbiyəsində ən əsas amil kimi onların sağlam böyüməsini qeyd edirlər. Mahiyyət onun fiziki və mənəvi gücünün harmoniyasında, əsəb sisteminin normallaşmasında, müxtəlif zərərli təsirlərə dözə bilmək qabiliyyətindədir. Müşahidələr göstərir ki, sağlam uşaq daim ətraf aləmlə maraqlanır. Belə uşaqlar çox enerjili olurlar və onları həyatın heç bir çətinliyi qorxutmur. Təbii ki, sağlam uşaqlarda ətraf aləmi öyrənmək və həyatın sirlərinə baş vurmaq tələbatı çox güclüdür. Tibbi tədqiqatlar sübut edir ki, fiziki hərəkətlərin məhdudluğu 40 yaşdan sonra insanlarda müəyyən problemlərin yaranmasına gətirib çıxarır. Psixoloqlar uşaqların fiziki məşğələlərdən yayınmaması üçün onların asudə vaxtlarını şən, əyləncəli proqramlarla zənginləşdirməyi tövsiyə edirlər. Təcrübələr göstərir ki, uşaqlar valideynlərdən ibrət götürürlər. Sözü ilə əməli üst-üstə düşməyən valideynlər övladlarının mənəvi tərbiyəsinə mənfi təsir göstərirlər. Uşağın sağlam həyat tərzi sürməyini istəyən valideyn öz davranışında düzgün olmalı, cəmiyyət içində fərqlənməlidir. Uşaqların sağlamlığı bu gün bütün dünyada valideynləri narahat edən başlıca məsələdir. Ölkələrin çoxunda bu problem ciddi narahatlıq doğurur və bununla bağlı dövlət səviyyəsində proqramlar və layihələr həyata keçirilir. Pedaqoqlar məktəbdənkənar təhsil sistemini uşaq və gənclərin maraq, həvəs, qabiliyyət, intellekt səviyyələrinin öyrənilməsində, onların yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılmasında mühüm vasitə hesab edirlər.

### Uşağın hərtərəfli tərbiyəsinin əsası ailədə qoyulur

Uşaqların bədən tərbiyəsi və idmana həvəsləndirilməsi yolları ailə və məktəbin birgə fəaliyyətindən yan keçməməlidir. Şübhəsiz ki, uşağın sağlamlığı və fiziki inkişafının əsası ailədə qoyulur. Həyatın ilk dərsini uşaq öz ailəsində alır, onun fiziki və mənəvi inkişafı ailədə təşəkkül tapır. Bu mənada, uşağın hərtərəfli tərbiyəsinin ilkin məktəbi məhz ailədir. Mütəxəssislərin fikrincə, ailədə təməli düzgün qoyulmuş fiziki tərbiyə uşaq və yeniyetmələrin təkcə fiziki hazırlığını yüksəltməklə, sağlamlığını möhkəmlətməklə kifayətlənmir, eyni zamanda, onların təhsilinə, ictimai fəallıqlarına müsbət təsir göstərir. Məhz bu baxımdan uşaqların bədən tərbiyəsi və idmana həvəsləndirilməsi yolları, ailənin tutduğu mövqe, fəaliyyət dairəsi gündən-günə genişləndirilməlidir.

Valideynlər uşaqların fiziki hazırlığını artırmaq məqsədilə onların düzgün qamət inkişafına, gün rejiminə, normal qidalanmasına, yuxu və səmərəli istirahətinə diqqət yetirməlidirlər. Təlim və tərbiyə prosesinin, uşaqların bədən tərbiyəsi və idmana həvəsləndirilməsi yollarının müvəffəqiyyətlə həyata keçirilməsində bütün bunların böyük əhəmiyyəti var. Ümumiyyətlə, uşaqlarla aparılan tərbiyə işlərinin müvəffəqiyyəti onun planlı, məqsədyönlü həyata keçirilməsindən asılıdır.

Söylənilən bu fikirlərdə uşaqların bədən tərbiyəsi və idmana marağının artırılması üçün çox qiymətli fikirlər yer alıb. Sevindirici haldır ki, ölkəmizdə fiziki tərbiyə müəllimləri fiziki hərəkətin ictimai, sağlamlıq və tərbiyəvi əhəmiyyətinə böyük önəm verir, idmanın elmi-nəzəri əsaslarına, digər fənlərlə əlaqəsi haqqında lazımi nəzəri məlumatlara dərindən yiyələnir, onları öz şagirdlərinə lazımi səviyyədə öyrədirlər. Azərbaycan dövləti idmanın hər yerdə, o cümlədən orta məktəblərdə kütləvi xarakter alması üçün ən yüksək səviyyədə tədbirlər həyata keçirir, proqramlar qəbul edir. Uşaq və yeniyetmələrin, o cümlədən gənclərin idmana cəlb olunması, həmçinin onlara idmanın nəzəri biliklərinin öyrədilməsi üçün lazımi qədər maliyyə vəsaiti sərf olunur. Bu baxımdan idmana aid nəzəri biliklərin zəif tədris edildiyi məktəblərdə bu iş əsaslı surətdə dəyişməli, dövlətin idmana və bədən tərbiyəsinə aid metodik tövsiyələri dəqiq yerinə yetirməlidir.

*Anar Əhmədov*

## *Santa-Susanna sentyabrı gözləyir*




Avropa Bodibildinq və Fitnes Federasiyası (ABF) qitə çempionatının yeni tarixini açıqlayıb. ABF-nin qərarına əsasən Avropa birinciliyi sentyabrın 16-21-də, əvvəlcədən nəzərdə tutulduğu kimi İspaniyanın Santa-Susanna şəhərində təşkil olunacaq. Əvvəlcə yarışın mayda keçirilməsi planlaşdırılırdı. Ancaq yarış koronavirus pandemiyasına görə, iyuna təxirə salınmışdı. Daha sonra ABF çempionatın iyunda da keçirilməsini məqsədəuyğun saymamışdı.

Qeyd edək ki, sonuncu qitə birinciliyində Azərbaycan millisi 1 medal qazanıb. Belə ki, klassik bodifitnes yarışlarında 171 santimetr kateqoriyasında Fərhad Quliyev bürünc medala sahib olmuşdu.

*Bölgə idmanı*

# Şabranda stolüstü tennisə böyük maraq var

Məlum olduğu kimi, koronavirusun bütün dünyada yayılması ciddi fəsadlara yol açdı. Covid-19 virusunun daha çox insana yoluxmaması üçün bütün kütləvi tədbirlər, o cümlədən idman yarışları təxirə salındı. Bəzi turnirlər



isə ümumiyyətlə, ləğv edildi. Hətta məşq zalları bağlandıqdan sonra idmançılar uzun müddət yarışlardan və məşqlərdən kənarda qaldılar. Lakin bu idmançılarımız üçün əngəl olmadı. Onlar ev şəraitində olsalar da idmansız qalmadılar. Kimisi bağ evində, kimisi isə bina evində məşqlərini edərək formalarını qorumağa çalışdılar. Təbii ki, bu məşqlər heç vaxt idman zallarındakı məşq prossesinin yerini verə bilməz. Onlayn məşqlər təkcə paytaxtda deyil, həmçinin bölgələrdə də keçirilirdi. Belə bölgələrdən biri də Şabran rayonudur. Müsahibimiz olan Şabran Rayon İdman Şahmat Məktəbinin stolüstü tennis bölməsinin baş məşqçi-müəllimi Zakir Cavadov "Olimpiya dünyası" qəzetinə keçirilən onlayn məşqlər barəsində danışdı. Onunla söhbət zamanı bir daha əmin olduq ki, Şabranda stolüstü tennisə olan sevgi heç bir əngəl tanımır.

"Aprelin 5-dən onlayn məşqlər keçirik. Hər məşq prosesində müntəzəm olaraq, 5 uşaq iştirak edir. Uşaqlar evdə özləri üçün lazımi şərait yaradıblar. Beləliklə, onlar fiziki hazırlıqlarını, keçməklə yanaşı, stollarda texniki hazırlıqları da icra edə bilirlər. Bizim evimizdə kompyuter olmadığına görə çalışıram ki, telefon vasitəsi ilə uşaqlara tapşırıqlarımı verim. Bura rayon yeridir. Təəssüf ki, hər kəsin internetə çıxışı olmadığına görə onlayn məşqlərdə iştirak edə bilmir. Lakin bu o demək deyil ki, onlar bu müddət ərzində idmansız qalmalıdırlar. Belə tələbələrlə əlaqə saxlayıb, onlara fərdi qaydada tapşırıqlarımı verirəm. Təbii ki, burada uşaqların məsuliyyətindən də çox şey asılıdır. Biz istəyirik ki, onlar xüsusi karantin müddəti başa çatana kimi, ümumi fiziki hazırlıqlarını və texniki bacarıqlarını itirməsinlər. Qeyd etdiyim kimi, fiziki hazırlıqla yanaşı, taktiki hazırlıqlar da çox önəmlidir. Bunun üçün onlar özləri üçün evdə qurduğu stollarda ailə üzvləri ilə birgə sparinq məşqlər edirlər. Düzdür, bu idmançı üçün çox çətin bir prosesdir. Çünki onların sparrinq kimi məşq etdikləri rəqiblər peşəkar idmançılar deyil. Amma başqa çarəmiz də yoxdur. Bu yolla olsa belə, yetirmələrimizin hazırlıq səviyyəsini qorumağa çalışırıq. İdmançılarımız məşq prosesini videoya çəkərək mənə göndərirlər. Mən də öz növbəmdə onların çatışmayan cəhətlərini nəzərlərinə çatdırıram. Onu da deyim ki, yetirmələrim çox istəklidirlər. Onlar özləri də belə şəraitə baxmayaraq məsuliyyətlərini yaxşı dərk edirlər. Təbii ki, bu, ilk növbədə onlarda stolüstü tennisə olan sevgidən irəli gəlir. Mən bu sevgini onlara aşılaya bildiyimə görə özümü xoşbəxt hiss edirəm", - deyə Zakir Cavadov bildirib.

Zakir Cavadov həmçinin idmançılarının qazandığı nailiyyətlər barəsində də məlumat verdi. O, çətin şəraitdə olmasına baxmayaraq, yetirmələri arasında bir sıra turnirlərin qalibi olan idmançıların olduğunu bildirib.

"Biz sonuncu dəfə fevralın 8-də keçirilən reyinq yarışında iştirak etmişik. Yetirməm Elşən Hüseynov bu yarışda ikinci, Tunar Bağırov üçüncü, Şəbnəm Mansurova isə çempion



adına layiq görüldü. Bu il Şirvanda keçirilən ölkə çempionatının zona birinciliyində oğlan və qızlardan ibarət komandalarımız final mərhələsinə vəsiqə qazandı. Final mərhələsində qızlardan ibarət komandamız ikinci yeri tutdu. İstedadlı yetirməmiz Tunar Bağırov isə 2009 və daha kiçiklər arasında birinci yerə sahib çıxdı. 3 tələbəmiz - Aliyə Haşımova, Zöhrə Abdullayeva və Nihat Məmmədov idman ustalığına namizəd normasını yerinə yetirdilər. Mart ayında 2002 və daha kiçk oğlan və qızlar arasında ölkə kuboku yarışı keçirilməli idi. Biz bu yarışa çox ciddi hazırlaşırdıq. Təəssüf ki, bu turnir təxirə salındı. İnanıram ki, pandemiya tez bir zamanda tamamilə başa çatacaq və biz də yenidən məşqlərə geri dönəcəyik", - deyə Zakir müəllim qeyd etdi.

*Azər Əlizadə*

# Formula 1

## Formula 1 Qran-Pri yarışları iyulun əvvəlində bərpa olunacaq

Yaxın günlərdə Formula 1-in Avropa mərhələsinin təqvimi açıqlanacaq. Nüfuzlu "Motorsport" nəşrinin məlumatına görə, Formula 1 rəhbərliyi bu mövsüm 15-18 Qran-Pri təşkil etmək istəyir. İndiki məqamda Fransa, Monako, Avstraliya və Niderland mərhələlərinin keçirilməyəcəyi



dəqiqdir. Plana əsasən, iyulun 5-də və 12-də Avstriyada ardıcıl 2 yarış təşkil olunacaq. Daha iki yarış İngiltərədə keçirilməlidir. Lakin ölkəyə daxil olanlar karantinə götürüləcəyinə görə, Silverstoun Qran-Priyə yalnız avqustda hazır olacaq.

* * *

Daniel Rikkardonun "Maklaren"ə keçidindən sonra "Reno"da onun yerini kimin tutacağı ilə bağlı müxtəlif söz-söhbət ara vermir. Hətta Fernando Alonsonun yenidən sabiq komandasına qayıdacağı ilə əlaqədar məlumatlar yayılıb. Avropa mətbuatının məlumatına görə, Formula 1 üzrə ikiqat dünya çempionu növbəti mövsümdən sabiq komandası "Reno"ya qayıtmağa yaxındır. Fransanı təmsil edən komandanın rəhbəri S.Abitebul Fernando ilə danışıqlar apardıqlarını təsdiqləyib: "Biz bir neçə variant haqda fikirləşirik. Müxtəlif pilotlarla danışıqlar aparırıq. Onlardan biri də Fernano Alonsodur. İndi bizə fikirləşməyə vaxt lazımdır. Çox vacib qərar qəbul etməliyik. Biz "Maklaren" və "Ferrari"nin yolu ilə getmək istəmirik. İndiki mövsümə başlamadan növbəti il üçün pilotun adını açıqlamaq çox qəribə olardı. Komanda quruculuğunda pilot seçimi sonuncu mərhələdə həyata keçirilməlidir". Bu xəbər yayılandan sonra "Ferrari"nin sabiq rəhbəri Marko Andrea Zekki "Reno"nun Alonso ilə maraqlanmasını tənqid edib. O deyib ki, işçilərini maliyyə böhranına görə ixtisara salan komanda karyerasını bitirən pilotu geri qaytarmaqla böyük riskə yol verir.

* * *

Formula 1 rəhbərliyi Avstriya və Böyük Britaniyadakı mərhələlərdə yürüşlərin startında hərəkət istiqamətini dəyişdirməyin mümkünlüyü məsələsini nəzərdən keçirir. "The Race" portalı xəbər verir ki, bu ideya "Liberty Media", Beynəlxalq Avtomobil Federasiyası (FIA) və komanda rəhbərlərinin müşavirəsində müzakirə edilib. Plana görə ənənəvi şənbə təsnifat yürüşlərinin əvəzinə hərəkət istiqamətini dəyişdirmə startı ilə sprinter yürüşü keçiriləcək. Belə halda birinci mövqedən "Williams"ın pilotları, son mövqedən isə "Mercedes"in pilotları start götürəcəklər. Bazar günü yürüşünün startı isə artıq şənbə yarışlarının nəticəsinə görə müəyyən ediləcək. Yürüşlərin hərəkət istiqamətini dəyişdirmə startı ilə keçirilməsi üzrə qəti qərar yaxın gələcəkdə qəbul ediləcək. Çünki FIA-nın razılaşacağı təqdirdə qısa müddət ərzində belə format üçün ətraflı reqlamentlə məşğul olmaq lazım gələcək. Mənbənin məlumatına görə, hazırda yalnız bir Formula 1 komandası yürüşlərin hərəkət istiqamətini dəyişdirmə startı ilə keçirilməsinə etiraz edir. Qərarın qəbulu üçün çempionatın bütün iştirakçılarının razılığı tələb olunur.

* * *

Formula-1 üzrə dünya çempionatının 2020-ci ildə keçiriləcək ilk mərhələləri rəsmən qapalı tədbir adlanacaq və bağlı qapılar arxasında keçiriləcək. Koronavirusun yayılma riskini azaltmaq üçün komandaların personalının sayı da minimuma endiriləcək. Hər komanda mərhələyə 80-dən artıq əməkdaşını apara bilməz. Onlardan yalnız 60-ı hər iki bolidlə çalışmaq hüququna malik olacaq. Sponsorlar, marketinq, ictimaiyyətlə əlaqələr, təhlükəsizlik və nəqliyyatla bağlı əməkdaşlar isə bu məhdudiyyətə daxil deyil. İlk qapalı tədbirin Avstriyadakı yürüşlərin olacağı və Avropadakı sonrakı Qran-Prilərin də istisna təşkil etməyəcəyi gözlənilir. Yarışın rəhbərliyi artıq ilin ikinci yarısında tamaşaçıların tribunalarda peyda olmasına ümid edir.

* * *

Son günlər Formula 1-də komandalar daxilində yerdəyişmələr əsas müzakirə mövzusuna çevrilib. Üstəlik, "Reno"nun satılacağı ilə bağlı xəbərlər avtoidman dünyasında geniş əks-səda doğurub. Qarşıdakı illərdə "Reno" Formula 1-də çıxışını dayandırmaq niyyətində olduğu deyilir. Daha doğrusu, fransalılar yarışda öz yerini başqa komandaya satmağı planlaşdırırlar. Avropa mətbuatının yazdığına görə, "Reno" Formula 1-də komanda ilə təmsil olunmasa belə, çempionatın bolidləri üçün mühərrik istehsalını davam etdirəcək.

* * *

Toto Volf yeni Formula 1 mövsümünün sonunda "Mercedes"in rəhbəri vəzifəsindən ayrıla bilər. Avtoidman funksioneri mərhum Niki Lauda kimi komandanın qeyri-rəsmi direktoru vəzifəsində çalışacaq və klubun 30 faiz səhmlərindən imtina etməyəcək. Yaxın gələcəkdə "Mercedes"in Lourens



Strollun himayəsinə keçməsi ehtimalı var. Bu halda isə bir neçə ay əvvəl "Aston Martin"in səhmlərinə sahib çıxan kanadalı biznesmenin fəaliyyəti "Daymler"in nəzarətinə keçəcək. Yəni, "Mercedes"in himayədarı "Daymler" həm də "Aston Martin"ə nəzarət edəcək.

Qarabağ idmanı

# Sevimli peşəsinə sadiq olan cəsur güləşçi

***Anar Ağacan oğlu Quliyev 1976-cı ildə dekabr ayının 20-də Şuşa rayonunun Malıbəyli kəndində ziyalı ailəsində anadan olub. O, 1983-cü ildə Malıbəyli kənd orta məktəbinin 1-ci sinifinə gedib. 1993-cü ildə isə 11-ci sinifi Bakı şəhəri Xəzər rayonunun Buzovna qəsəbəsində müvəqqəti məskunlaşdıqları ərazidə yerləşən Malıbəyli orta məktəbini müvəffəqiyyətlə bitirib.***



Anar Quliyevin kənd həyatındakı uşaqlıq illəri maraqlı keçib. O, tay-tuşları arasında fiziki hazırlığına görə xeyli fərqlənirdi. Hamı ona hörmət edir, həmişə onu özlərinə böyük hesab edirdilər. Ümumiyyətlə, Anar kiçik yaşlarından bədən tərbiyəsi və idmanı sevmiş (Anarın anası Həqiqət xanım 1958-ci ildən 1992-ci ilə qədər Malıbəylidə, sonra isə məlum hadisələrlə əlaqədar olaraq 1992-ci ildən 2011-ci ilə qədər Bakının Buzovna kəndində yerləşən məcburi köçkün olan Malıbəyli kənd məktəbində bədən tərbiyəsi dərslərini tədris edib. Yəni, Şuşanın Malıbəyli kəndində fasiləsiz olaraq 53 il bədən tərbiyəsi müəllimi işləyib. Hazırda təqaüddədir - red) voleybol, futbol, atletika və güləşlə məşğul olub. Bu idman növlərindən ən çox sərbəst güləşi sevimli peşə kimi qəbul edib. 1994-cü ildən "Neftçi" idman cəmiyyətində məşqçi Gülbaba müəllim Anarla sərbəst güləşlə məşğul olduğu illərdə üstünlüyü əsasən fiziki hazırlığa verib, güləşin sirləri haqqında dərindən məlumatlandırıb və ona çoxlu fəndlər öyrədib. O, daha çox "Suples" fəndin sevirdi (Yəni güləşçini sinəsi üstə qaldırıb başı üzərindən arxaya atmaq). Anar bu üsuldan tez-tez istifadə edir və əksər vaxtlarda da qalib gəlirdi... O, əvvəlcə 68 kq, sonralar isə 75 kq çəki dərəcəsində güləşib. Anar Quliyev aylarla, illərlə keçirilən sərbəst güləş yarışlarında dəfələrlə fəxri kürsünün yüksək pillələrinə qalxıb, doğma kəndi olan Malıbəylinin, Şuşanın idman şərəfini layiqincə qoruyub. Eyni zamanda o, Bakıda yerləşən "Neftçi", "Burevestnik", "Dinamo" və başqa idman cəmiyyətlərinin, təşkilatlarının fəxri fərmanlarına, diplomlarına, kuboklara və müxtəlif hədiyyələrə layiq görülüb.

Anar Quliyev 1994-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai hərbi hazırlıq və fiziki təlim fakültəsinin 1-ci kursuna daxil olub, 1998-ci ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirib. Onun şəkli dərslərini əla oxuduğu və idmanda yüksək nəticələr qazandığına görə universitetin şərəf lövhəsinə vurulmuşdu. Anar tələbəlik illərində Respublika miqyaslı yarışlarda iştirak edərək, dəfələrlə mükafatçılar sırasında yer alıb. O, 1995-ci ildə Ali məktəblərin Respublika birinciliyində sərbəst güləş üzrə 3-cü yeri, 1996-cı ildə isə 2-ci yeri tutub. 1997-ci ildə Bakı şəhər birinciliyində sərbəst güləş üzrə 2-ci, 1998-ci ildə isə respublika birinciliyində 3-cü yeri tutaraq diplom və fəxri fərmanlara layiq görülüb. O, 1998-ci ildə Ümumittifaq Vahid İdman Təsnifatının tələb və normativlərini yerinə yetirdiyi üçün ona sərbəst güləş üzrə "İdman ustalığına namizəd" dərəcəsi adı verilib.

Anar Quliyev 4 il təhsil aldığı ali məktəbin müəllim və tələbələri arasında böyük nüfuza və hörmətə malik idi. Elə buna görə də 1998-ci ildə Şuşa şəhər 1 nömrəli tam orta məktəbinə təyinat alıb və hazırda həmin məktəbdə hərbi rəhbər vəzifəsində işləyir. O, işlədiyi illər ərzində Bakıda keçirilən "Şahin" hərbi idman oyunlarında Şuşa komandası onun rəhbərliyi altında çıxış edərək, yüksək nəticələr göstərib, dəfələrlə mükafatlar, diplomlar və fəxri fərmanlarla təltif olunub.

Anar Quliyev valideynləri ilə birlikdə Şuşanın ən böyük kəndi olan Malıbəylidən didərgin düşüb, Bakı şəhəri Sabunçu rayonu Ramanı-450 qəsəbəsində yaşayır. 44 yaşlı veteran idmançı yenə də öz sevimli peşəsi sərbəst güləşlə məşğul olur və ictimai əsaslarla məşqçilik edir. O, Şuşa şəhər 1 saylı tam orta məktəbində ixtisası üzrə hərbi hazırlıq dərsi aparır, eyni zamanda hərbi işlər üzrə direktor müavini vəzifəsində çalışır, Vətənə sağlam, layiqli yeni nəsil hazırlayır və doğma Şuşaya, əziz kəndi olan Malıbəyliyə qayıdacağı günü səbirsizliklə gözləyir.

***Əbülqasım Novruzov,***
***Şuşa Uşaq Gənclər İdman-Şahmat Məktəbinin direktoru***

# Dünyanın ən çox qazanan idmançıları



"Forbes" nəşri son bir ildə mükafat, əməkhaqqı, sponsorluq gəlirləri və bonuslar əsasında ən çox qazanan idmançıların siyahısını açıqlayıb.

Siyahıda ilk yeri isveçrəli tennisçi Roje Federer tutub. O il ərzində 106,3 milyon ABŞ dolları qazanıb. Qeyd olunub ki, hazırda 38 yaşlı Federerin 13 müqaviləsi mövcuddur, onların hər biri idmançıya 3 milyon ABŞ dollarından 30 milyon ABŞ dollarına qədər vəsait ödəyir.

"Yuventus" futbol klubunun futbolçusu Kriştianu Ronaldo dünyanın ən çox qazanan ikinci idmançısıdır. Portuqaliyalı hücumçu son bir ildə 105 milyon ABŞ dolları qazanıb.



Ən çox qazanan idmançıların siyahısında Lionel Messi ("Barselona", 104 milyon ABŞ dolları) və Neymar (PSJ, 95,5 milyon ABŞ dolları) da var.

İlk onluqda həmçinin, basketbolçular Lebron Ceyms (88,2 milyon ABŞ dolları), Stefan Karri (74,4 milyon ABŞ dolları) və Kevin Dyurant (63,9 milyon ABŞ dolları), qolfçu Tayqer Vuds (62,3 milyon ABŞ dolları) və Amerika futbolunun iki nümayəndəsi Kirk Kazins (60,5 milyon ABŞ dolları) və Karson Vençin (59,1 milyon ABŞ dolları) adları yer alıb.

*Şahmat*



## Təmsilçilərimizin mövqeyi dəyişmədi

Beynəlxalq Şahmat Federasiyası (FİDE) iyun ayı üçün reytinq siyahısını açıqlayıb.

Tərtib olunan yeni siyahıda şahmatçıların mövqelərində heç bir dəyişiklik olmayıb. Belə ki, Teymur Rəcəbov (2765) 9-cu, Şəhriyar Məmmədyarov isə 11-ci pillədədir (2764).

Digər şahmatçılarımızdan Qədir Hüseynov (2665, 72-ci yer), Nicat Abasov (2664, 74-cü yer), Rauf Məmmədov (2654, 90-cı yer) ilk yüzlükdə yer alıblar.

Siyahıda hazırkı dünya çempionu, norveçli Maqnus Karlsen (2863), amerikalı Fabiano Karuana (2835) və çinli Liren Dinq (2791) ilk üçlükdə qərarlaşıblar.

Qadınların reytinq cədvəlində əvvəlki kimi birinci yeri çinli Hou Yifan (2658) tutub. İkinci pillədə Hindistan şahmatçısı Humpi Koneru (2586), üçüncü yerdə isə rusiyalı Aleksandra Qoryaçkina (2582) yer alıblar.

Qadın şahmatçılarımızdan Günay Məmmədzadə (2443, 29-cu yer), Gülnar Məmmədova (2382, 77-ci yer) Xanım Balacayeva (2376, 86-cı yer) ilk yüzlükdə qərarlaşıblar.

## Onlayn şahmat turnirinin qalibi müəyyənləşdi

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və "Grand Master" şahmat klubunun təşkilatçılığı ilə 28 May - Respublika Gününə həsr olunmuş şahmatın blits növü üzrə onlayn turnir keçirilib. "Lichess.org platforması vasitəsilə keçirilən turnirdə 105 şahmatçı iştirak edib. Doqquz turdan ibarət olan və İsveçrə sistemi üzrə təşkil edilən turnirin yekun nəticələrinə görə, oğlanlar arasında Şəhriyar Rəhmanov, Orxan Bağırov, Aydın Şahpələngov ilk üç yerə layiq görülüblər.

Qızlar arasında isə Leyla Budaqova, Kamilla Balayeva, Aytac Məmmədova ən yüksək nəticələr əldə ediblər.

## Şahmatçımız beynəlxalq turnirin qalibi oldu

Gənclər və İdman Nazirliyinin, Azərbaycan və Gürcüstan Şahmat federasiyalarının, eləcə də SOCAR-ın təşkilatçılığı ilə şahmatın blits növü üzrə onlayn qaydada keçirilən beynəlxalq "İpək yolu kuboku" turnirinə yekun vurulub.

15 turdan 11,5 xal toplayan azərbaycanlı qrossmeyster Rauf Məmmədov birinci yeri tutub. Ondan yarım xal geri qalan gürcü Bahadur Cobava ikinci yerdə qərarlaşıb. Azərbaycan yığmasının digər üzvü Nicat Abasov 10,5 xalla üçüncü olub.

Yığmamızın üzvlərindən Şəhriyar Məmmədyarov, Aydın Süleymanlı, Nicat Məmmədov, Vasif Durarbəyli ilk 10-da yer alıblar. Belə ki, Ş.Məmmədyarov 10 xalla 5-ci, A.Süleymanlı 9,5 xalla 7-ci, N.Məmmədov eyni xalla 9-cu, V.Durarbəyli 9 xalla 10-cu olublar



Qeyd edək ki, Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədovun təşəbbüsü ilə keçirilən turnir Azərbaycanın və Gürcüstanın milli bayramları - müvafiq olaraq, Respublika Günü və Müstəqillik Gününə həsr edilib. Yarışın təşkilində məqsəd Azərbaycan ilə Gürcüstan arasında idman sahəsində əlaqələrin inkişafı, pandemiya dövründə şahmatçıların oyun praktikasının qorunub saxlanması və bu qədim idman növünün təbliğidir.

Qeyd edək ki, yarışın ümumi mükafat fondu 20 min avro idi.

Yarış "playchess.com" virtual oyun platforması vasitəsilə keçirilib.

## "Peşəkar idmançılar nadir hallarda uğurlu məşqçiyə çevrilirlər"

Şüvüllə hündürlüyə tullanma üzrə ikiqat Olimpiya çempionu Yelena İsinbayeva məşqçilik fəaliyyəti ilə məşğul olmaq niyyətində olmadığını bildirib.

"Şüvüllə hündürlüyə tullanma üzrə məşqçi karyerasına gəldikdə isə bunun hələ tez olduğunu deyə bilərəm. Ola bilər ki, bu fikrimi 20 il sonra rellaşdırdım. İndi mən buna hazır deyiləm. Çünki peşəkar idmançılar nadir hallarda uğurlu məşqçiyə çevrilirlər. Düşünürəm ki, bu, başqa bir fəaliyyətdir. Məşqçi vəzifəsinə tam hazır olmaq lazımdır. Belə ki, sən 7 gün 24 saat vaxtını tələbələrinə sərf etməli olacaqsan. Hazırda isə mən buna hazır deyiləm. Hələ öz övladlarım kiçikdir. İlk növbədə onları böyütmək istəyirəm", - deyə Y.İsinbayeva vurğulayıb.



Qeyd edək ki, Yelena İsinbayeva 2016-cı ilin avqustunda peşəkar karyerasını bitirdiyini elan edib.

## 124 illik marafon ləğv olundu

Boston marafonunun təşkilatçıları koronavirus pandemiyası səbəbindən cari il təşkil olunacaq yarışını ləğv etmək qərarına gəliblər. Bu barədə yarışın mətbuat xidməti xəbər yayıb. Məlumatda bildirilir ki, daha əvvəl keçirilməsi 2020-ci ilin 20 aprel tarixinə planlaşdırılan və sonradan 14 sentyabr tarixinə təxirə salınan marafon bu il keçirilməyəcək.

"Əsas prioritetimiz cəmiyyətin, eləcə də işçilərimizin, iştirakçıların, könüllülərin, tamaşaçıların və azarkeşlərin sağlamlığını qorumaqdır", - marafonunun icraçı direktoru Tom Qrilk deyib.

Qeyd olunur ki, bütün qeydiyyatdan keçənlərə ödənilən giriş haqları qaytarılacaq. Bundan əlavə, hər kəs marafonun virtual versiyasında iştirak etmək imkanı əldə edəcək. Bunu etmək üçün məsafəni müstəqil şəkildə qət etməli və müvafiq təsdiq göstərilməlidir. Virtual marafonu başa vuran bütün idmançılar rəsmi Boston marafon proqramının iştirakçı köynəyini, idmançı döş nişanını və medalını alacaqlar.



Xatırladaq ki, Boston marafonu dünyanın ən qədim və ən nüfuzlu yarışlarından biridir və ilk dəfə 1897-ci ildə keçirilib.

## *Ulduz futbolçular klipdə yer aldılar*

İspaniyanın "Barselona" klubunun futbolçuları Lionel Messi, Luis Suares və "Real"ın müdafiəçisi Serxio Ramos klipə çəkiliblər.

Onlar Enrike İqlesias və Anuel AA-nın birgə ifa etdiyi "Futbol y Rumba" mahnısının klipində yer alıblar.



Qeyd edək ki, mayın 28-də "Youtube"a yerləşdirilən klipə artıq 5 milyondan çox baxış olub.

## *Futbolçu koronavirusdan vəfat etdi*

Boliviyanın aşağı divizionlarından birində çıxış edən "Universitario Del Beni" klubunun oyunçusu Deybert Frans Roman Quzman dünyasını dəyişib.



Boliviya Futbol Federasiyasının "Twitter" hesabında yer alan xəbərə görə 25 yaşlı futbolçu koronavirusdan vəfat edib. Daha əvvəl onun atası, "Universitario Del Beni"nin keçmiş prezidenti - Belizario Roman və dayısı, yerli "Deportivo" klubunun meneceri olan Karmelo Romanda COVID-19 aşkarlanmışdı.

Onların hər üçü Benidə yaşayırdılar. Bura Boliviyada epidemioloji vəziyyətin ən ağır olduğu regiondu.

***İdman tarixindən***




# Ulduzların səmadan enişi, yaxud bir qəzanın gizli məqamları

1961-ci ilin 15 fevral tarixi dünya idmanında, xüsusilə də ABŞ üçün qara hərflərlə yadda qalıb. Belə ki, həmin təqvim günündə ABŞ-ın fiqurlu konkisürmə üzrə yığmasının bütün üzvlərinin də yer aldığı təyyarə Brüsseldə qəzaya uğrayıb. Qeyd edək ki, yığma komanda Praqada keçirilən dünya çempionatında iştirak etmək üçün həmin təyyarədə yer almışdı. Qəzaya uğrayan təyyarədəki 45 sərnişin də Praqada yerə enəcəkdi. Qəza nəticəsində heç bir sərnişin sağ qalmamışdı. Mütəxəssislərin fikrincə, təyyarənin qəzaya uğramasının səbəbi laynerin nizamlayıcı mexanizminin nasazlığı göstərilirdi. Bu qəza səbəbindən ilk dəfə idi ki, dünya idman tarixində mühüm yarışlardan biri - dünya çempionatı təxirə salınmışdı. Bundan başqa ABŞ da dövlət tərəfindən qanun qəbul edildi ki, heç vaxt hər hansı ölkəni təmsil edən heç bir yığma komanda tam heyətlə təyyarədə uçuş etməsin.

### 10 il ərzində xarüqələr yaradan heyət

ABŞ-ın fiqurlu konkisürmə üzrə idmançılarının uğur tarixçəsi çox zəngindir. Ölkənin bu sahə üzrə təmsilçiləri demək olar ki, əksər beynəlxalq yarışlarda əsas rəqiblərdən sayılırdılar. 1940-cı ildən 1950-ci ilə qədər fərdi və cütlüklərin mübarizəsində amerikalı fiqurçular dominantlıq edirdilər. Belə ki, Riçard Batton, Heyiz Alan Cenkins, Devid Cenkins, Tim Braun, Ceyms Qroqen, Ronald Robinson kişilərdə, Tenli Olbrayt və Kerol Heyiss isə qadınların yarışında uğurlu nəticələr göstərirdilər. Bunun nəticəsidir ki, adları qeyd olunanlar 10 il ərzində 40 medala layiq görülmüşdülər. Həmin medalların yarıdan çoxu qızıl idi.

1960-cı ilin əvvəllərindən etibarən ABŞ da güclü fiqurlu konkisürmə nəsli yetişməyə başladı onlar o qədər istedadlı idilər ki, peşəkar karyeralarını təxminən 40 yaşa kimi davam etdirə bilərdilər. Bu nəsil dəyişkənliyi hiss olunmadan əvəz olunurdu. Heyət tamamilə yenilənirdi. Ümidlər Bredli Lorda, Qriqori Kelliyə, Duqlas Remsiyə, Laurens Ouenə, Stefani Vesterfeldə və Roud Li Mihelsona bəslənilirdi. Bu heyət 1961-ci ildə Çexiyada keçirilən dünya çempionatında ürəkləri fəth etməli idi. Adları çəkilən idmançılardan ilk olaraq Meribe Vinson- Ouen 1932-ci ildə Leyk-Plesitdə keçirilən III Qış

> ***İdman cütlüyü:***
>
> *İla Rey Hedli / Rey Hedli - kiçik*
> *Lori Cin Hi Koks / Uilyam Holms Hi Koks*
> *Meribel Ouen - kiçik (baş məşqçinin qızı) / Dadlı Riçars*
>
> ***Rəqs cütlüyü:***
> *Diyana Şerbulum / Larri Pirs, Dona Li Karier / Rocer Kempfer*
> *Patris / ya Dinne / Rober Dinne*
>
> **İllər keçsə də, hər bir idmançının adları qeyd edilməlidir.*
>
> *15 fevral. Reys SN548, Nyu - York - Praqa. 07:00 ABŞ yığmasının bütün heyəti və digər 45 sərnişin. Boeing 707 - 329 (Belçikaya məxsus "Sabena" aviakompaniyasının təyyarəsi. Təyyarənin Brüsselə enişi nəzərdə tutulurdu".*

Olimpiya Oyunlarının bürünc mükafatına layiq görülmüşdü. ABŞ yığması təkcə fərdi yarışlarda lider deyildi. Cütlüklərin yarışında da bu idmançılar əsas namizədlər sayılırdı.

### Layner hansı səbəbdən yerə uğursuz eniş etdi?

"Boeing" təyyarəsinin yerdən göyə qalxması normal həyata keçirilmişdi. Heç bir problemdən söhbət gedə bilməzdi. Uçuş demək olar ki, uğurlu olmuşdu. Təyyarə Brüssel hava limanına enməyə hazır idi. Təyyarədən yerə məlumat verildi ki, layner enişə hazırdır. Lakin əks tərəfdən məlumat göndərildi ki, eniş xətti digər təyyarəni qəbul edəcək, bu səbəbdən də ABŞ təyyarəsi səmada ikinci dövrəni vurmalıdır. "Boeing" də dövrəni dəyişərək, naməlum traektoriyaya üz tutdu. Bir neçə dəqiqə sonra yerdəki mütəxəssislər təyyarə ilə əlaqəni itirdilər. "Boeing" səmada üç dövrə vurdu. Saat 10:05-də təyyarə yerə doğru sürət aldı. Amma qəza vəziyyətində... Laynerin burun hissəsi yerə toxundu. Təyyarə bir anda dəhşətli dərəcədə alışmağa başladı. Yerlə toqquşmadan sonra uzun məsafə qət edən təyyarə Berq meşəliyinə daxil oldu. Həmin vaxtı ətrafda xeyli insan kütləsi var idi. Yerli sakinlərdən biri həlak oldu, digəri isə əlil oldu. Əlil olan hadisə şahidinin dediklərindən: "Mən təyyarənin necə yerə çırpıldığını öz gözlərimlə gördüm. Hiss olunurdu ki, laynerin pilotu təyyarəni sərbəst yerə, açıq bir əraziyə endirmək istəyir. Biz həmin vaxtı meşəlikdə idik. Görünür mənim bəxtim gətirdi əlil olsam da həyatdayam. Yanımda və təyyarədə həyatını itirən insanlara görə çox heyfislənirəm".



### "Komissiyanın kifayət qədər sübutları yox idi"

Qəza barəsində Aviation Safety Netvvork saytında ətraflı məlumat yer almışdı. Komissiyanın qərarları qısaca olaraq bu mətndən ibarət idi. "Aparılan tədqiqatlara əsasən komissiya qərara alır ki, qəzanın səbəbi uçuşu həyata keçirən laynerin nasazlığı ilə əlaqədardır". Komissiyanın kifayət qədər sübutları yox idi. Qəza barəsində bundan başqa ətraflı məlumatlar verilmir. Maraqlıdır ki, amerikalılar dövlət səviyyəsində hadisənin araşdırılmasını tələb etmədilər. Onlar sadəcə hadisəyə matəm tutmaqla kifayətləndilər. Maraqlıdır ki, həlak olanların ailələri də baş vermiş faciəni sakit şəkildə qarşıladılar. Həmin vaxt ABŞ prezidenti olan Con Kennedi xalqa başsağlığı verdi. "Bizim ölkəmiz bu faciədə böyük istedadlı insanlarını itirdi. O insanları ki, onlar ölkəmizin adını dünyada tanıtdırmışdılar", - deyə ABŞ prezidenti vurğulamışdı. Bundan başqa Kennedi şəxsən laynerin sərnişini olan Dadli Riçardsa görə kədərlənmişdi. Çünki onun ailəsi prezidentlə yaxın dost idilər. Beləliklə, 1961-ci il də Praqada keçirilən dünya çempionatı baş vermiş hadisələrə görə keçirilmədi. Hətta yarış keçirilsə idi belə iştirakçı ölkələrin əksəriyyəti yarışlara qoşulmayacaqdı. Bu o demək deyil ki, Praqadakı dünya çempionatı ləğv edildi. Qəzadan bir il sonra yenidən dünya çempionatı keçirildi. Lakin yarışlarda ABŞ-ın həmin idmançıları yox idi. Doğrudan da ABŞ ən güclü idmançılarını itirmişdi. Qısa zaman ərzində dünya çempionatında yüksək səviyyədə, fəxri mükafatlar uğrunda mübarizə aparacaq heyət təşkil etmək asan iş deyildi. ABŞ-ın Fiqurlu Konkisürmə Federasiyasının katibi Karl Qrem "The Gazette" nəşrinə verdiyi müsahibəsində deyirdi: "Bu doğrudan da faciə idi. Həm insan tələfatı, həm də mənəvi sarsıntı. Dünya şöhrətli idmançılarını itirən federasiyamız çox böyük zərbə aldı. Biz buna hazır deyildik. Federasiyanın bütün üzvləri və məşqçi heyəti çıxılmaz vəziyyətdə qalmışdı. Hər şeyə yenidən başlamalı idik. Axı biz iki nəslin məşqçilərini itirmişdik. Onların arasında Bredli Lord kimi dahi məşqçi də var idi.

Federasiyanın vitse - prezidenti F.Ritter Şamuey həmin vaxt bildirmişdir ki, ABŞ yığmasının yenidən formalaşması üçün təxminən iki il kifayət edəcək. Bu, belə də oldu. 1964-cü il də ölkə çempionu olan Peqqi Flemninq iki il sonra dünya çempionatının qızıl mükafatına yiyələndi. Bundan başqa xanım idmançı 1968-ci il də Fransanın Qrenobl şəhərində keçirilən X Qış Olimpiya Oyunalarının da qalibi oldu. Onunla eyni vaxtda Doroti Hemill və Tim Vud, Tara Lipinski və Çarlz Tikner cütlükləri yetişdi. ABŞ üçün baş vermiş faciədən illər sonra ölkədə fiqurlu konkisürmə yenidən inkişaf etdi. Amma unudulmayan bir məsələ var idi. O da, "Boeing" 707 - 329 təyyarəsinin mümmalı qəzası. Qəza qurbanlarının xatirəsini əbədiləşdirmək üçün ABŞ da xeyriyə fondu yaradılıb ki, hazırda onun büdcəsi 15 mln ABŞ dolları təşkil edir. Bu məbləğ ölkədə fiqurlu konkisürmənin inkişafına xərclənir. 2011-ci ildə isə qəzada həyatlarını itirmiş idmançıların adları Şimali Karolina ştatında yerləşən Qrinsporo Şərəf Zalına daxil edilib. Təyyarənin qəzaya uğradığı ərazidə amerikalılar xatirə kompleksi inşa ediblər. Bir daha qeyd edək ki, ABŞ verdiyi qərarı bu günə kimi qüvvədə saxlayır - beynəlxalq yarışlara gedən yığma komandaların heç biri bütöv heyətlə eyni təyyarədə uça bilməz.

***Anar Əhmədov***

# F U T B O L

## AFFA: Klublar Komitəsinin videokonfrans formatında növbəti iclası keçirilib

### *Azərbaycan Premyer Liqası iyunun 21-də bərpa olunacaq*



***Mayın 31-də AFFA-nın təşəbbüsü ilə Klublar Komitəsinin videokonfrans formatında ikinci iclası keçirilib. İclasda AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov, PFL-in prezidenti Ramin Musayev, Premyer Liqa klublarının rəhbər şəxsləri və AFFA-nın baş həkimi Vyaçeslav Xomenko iştirak ediblər.***

Elxan Məmmədov iclası giriş sözü ilə açaraq ölkəmizdə koronavirus (COVID-19) infeksiyasının qarşısının alınması, pandemiya dövründə vətəndaşların sağlamlığı naminə dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərlə əlaqədar futbol ictimaiyyəti adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

İclasda iyunun 1-dən etibarən Premyer Liqa klublarının məşqlərinin, habelə iyunun 21-də Premyer Liqa və Azərbaycan Kuboku oyunlarının bərpası, Premyer Liqa klublarının futbolçu və məşqçi heyətinin həftəlik olaraq COVID-19 testinə cəlb olunması, Premyer Liqa və Kubok oyunlarının bərpası ilə bağlı oyun təqvimi, oyunların bərpasından sonra hər hansı futbolçu və ya məşqçinin COVID-19 testi müsbət nəticələnəcəyi təqdirdə atılacaq növbəti addımlar, pandemiya ilə bağlı klub və futbolçular arasında imzalanmış mövcud müqavilələrə müvafiq bəndlərin əlavə olunması və digər məsələlər müzakirə edilib.

Elxan Məmmədov qeyd edib ki, müzakirəyə çıxarılan mövzular əvvəlcədən klublara göndərilib.

Sonra PFL-in prezidenti Ramin Musayev fikirlərini bildirib.

Premyer Liqa klublarının rəsmiləri gündəlikdəki bütün məsələlər barədə çıxış etdikdən sonra AFFA-nın baş həkimi Vyaçeslav Xomenko mövcud vəziyyətdə sanitar-gigiyenik qaydalara riayət olunmasının və COVID-19 testinin vacibliyi barədə danışıb.

Ətraflı müzakirələrdən sonra iyunun 1-dən etibarən Premyer Liqa klublarının məşqlərinin, iyunun 21-də Premyer Liqa və Azərbaycan Kuboku oyunlarının bərpası, Premyer Liqa oyunlarının bərpasından əvvəl klublarının futbolçu və məşqçi heyəti mütləq şəkildə COVID-19 testinə cəlb olunması, Premyer Liqa və Kubok oyunlarının təqviminin PFL tərəfindən hazırlanaraq yaxın günlərdə klublara göndərilməsi, oyunların bərpasından sonra hər hansı futbolçu və ya məşqçinin COVID-19 testi müsbət nəticələnəcəyi təqdirdə, AFFA müvafiq dövlət strukturları ilə danışıqlardan sonra müvafiq təlimatlara uyğun hərəkət edilməsi, COVID-19 pandemiyası ilə bağlı klub və futbolçular arasında imzalanmış mövcud müqavilələrə müvafiq bəndlərin əlavə olunması PFL və klublar arasında müzakirələrin aparılması məsələləri barədə razılıq əldə edilib.

Bununla yanaşı, iclasda məşqlərin və oyunların təşkili zamanı texniki proseslər ətraflı müzakirə olunub, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və tövsiyələrinə riayət olunmasının vacibliyi xüsusi vurğulanıb.

Klublar Komitəsinin iclasında müzakirəyə çıxarılan bir sıra məsələlər yekun qərarların qəbul olunması üçün İcraiyyə Komitəsinin növbəti iclasının gündəliyinə daxil ediləcək.

*  *  *

Peşəkar Futbol Liqası bərpasına qərar verilən Premyer Liqa və kuboku yarışlarının qalan hissəsinin yeni təqvimini təsdiq edib. Yeni təqvimə görə 8 turun bütün oyunları eyni gündə keçiriləcək. Premyer Liqa iyunun 21-də bərpa olunacaq, iyulun 29-a isə yekun vurulacaq. 2019/20 mövsümü isə avqustun 2-də keçiriləcək Azərbaycan kubokunun final matçı ilə başa çatdırılacaq.

***Azərbaycan Premyer Liqasının təqvimi:***

**21-ci tur**

21 iyun

"Qarabağ" - "Qəbələ"
"Sabah" - "Keşlə"
"Sumqayıt" - "Səbail"
"Zirə" - "Neftçi"

**22-ci tur**

26 iyun

"Qəbələ" - "Sabah"
"Səbail" - "Keşlə"
"Zirə" - "Sumqayıt"
"Neftçi" - "Qarabağ"

**23-cü tur**

30 iyun

"Sabah" - "Sumqayıt"
"Qarabağ" - "Zirə"
"Keşlə" - "Neftçi"
"Qəbələ" - "Səbail"

**24-cü tur**

5 iyul

"Səbail" - "Sabah"
"Neftçi" - "Qəbələ"
"Zirə" - "Keşlə"
"Sumqayıt" - "Qarabağ"

**25-ci tur**

9 iyul

"Səbail" - "Neftçi"
"Sabah" - "Qarabağ"
"Keşlə" - "Sumqayıt"
"Qəbələ" - "Zirə"

13 iyul

Azərbaycan Kuboku

1/2 final mərhələsi, ilk oyunlar

"Qəbələ" - "Zirə"
"Sumqayıt" - "Qarabağ"

**25-ci tur**

17 iyul

"Sabah" - "Neftçi"
"Zirə" - "Səbail"
"Qarabağ" - "Keşlə"
"Sumqayıt" - "Qəbələ"

21 iyul

Azərbaycan Kuboku

1/2 final, cavab oyunları

"Zirə" - "Qəbələ"
"Qarabağ" - "Sumqayıt"

**27-ci tur**

25 iyul

"Keşlə" - "Sabah"
"Qəbələ" - "Qarabağ"
"Səbail" - "Sumqayıt"
"Neftçi" - "Zirə"

**28-ci tur**

29 iyul

"Sabah" - "Zirə"
"Sumqayıt" - "Neftçi"
"Qarabağ" - "Səbail"
"Keşlə" - "Qəbələ"

**2 avqust**

Azərbaycan kuboku - Final

## Amsterdam dörd oyuna ev sahibliyi etmək istəyir

Niderland hökuməti futbol üzrə Avropa çempionatının 2021-ci ilə təyin edilmiş dörd oyununa Amsterdam şəhərinin ev sahibliyi etməsinə razılıq verib. Bunu Niderland Kral Futbol Birliyinin (KNVB) baş katibi Qeis de Yonq deyib.

"Avropa çempionatı təxirə salınandan sonra UEFA və bütün tərəfdaşlarımızla konstruktiv məsləhətləşmələr apardıq. Amsterdam şəhər rəhbərliyi 2021-ci ildə dörd oyunun burada keçirilməsinə razılıq verib. Hələ də bəzi məsələləri müzakirə edirik. Həmçinin "Yohan Kroyff" arenası da oyunlara ev sahibliyi etməyə hazır olduğunu təsdiqləyib. Bizə hazırlaşmaq üçün müəyyən vaxt lazımdır və ümidvaram ki, bu oyunları yaxşı şəkildə qəbul edəcəyik, - deyə Qeis de Yonq bildirib.

Qeyd edək ki, Amsterdam Avropa çempionatının qrup mərhələsinin üç oyununa və səkkizdəbir final mərhələsinin bir qarşılaşmasına ev sahibliyi edəcək.

Futbol üzrə Avropa çempionatının 60 illik yubileyi münasibətilə qitə birinciliyinin oyunları 12 şəhərdə - Bakı, Sankt-Peterburq, London, Münhen, Roma, Buxarest, Dublin, Kopenhagen, Bilbao, Qlazqo,




Budapeşt və Amsterdamda keçiriləcək. A qrupu çərçivəsində Uels-İsveçrə, Türkiyə-Uels, İsveçrə-Türkiyə qarşılaşmaları, eləcə də dörddəbir final mərhələsinin bir görüşü Bakı Olimpiya Stadionunda oynanılacaq.

Avropa çempionatının 2020-ci ildə keçirilməsi planlaşdırılsa da, koronavirusla əlaqədar martın 21-də qitə birinciliyinin 2021-ci ilə təxirə salınması barədə qərar qəbul olunub.

Daha əvvəl bildirilmişdi ki, UEFA Avropa çempionatını qəbul edəcək şəhərlərin sayının azaldılması imkanlarını nəzərdən keçirir.

## FİFA-dan federasiyalara yeni təlimat

FİFA dünyanın bütün ölkələrinin futbol federasiyalarına təlimat göndərib.

Həmin sənəddə hər bir insan sağlamlığının vacibliyinə önəm verilməsi vurğulanıb.

Ali futbol qurumu koronavirus pandemiyasına qarşı peyvənd tapılana qədər futbolda sərt sanitariya standartlarının qüvvədə qalacağını xəbərdar edib. Həmçinin bəzi məsləhətlər də verilib: gigiyena qaydalarına riayət, fiziki məsafənin qorunması, düzgün qidalanma, lazımsız səfərlərdən qaçmaq.

## Belçika və Polşada baş məşqçilər dəyişmədi

Belçika Futbol Federasiyası millinin baş məşqçisi Roberto Martineslə müqaviləni uzadıb. İspaniyalı mütəxəssisin yeni müqaviləsi 2022-ci ilədək nəzərdə tutulub. Qeyd edək ki, R.Martines 2016-cı ildən yığmaya rəhbərlik edir. Komanda onun rəhbərliyi altında 2018-ci ildə Rusiyada təşkil olunan dünya çempionatında bürünc medal qazanıb.

*  *  *



Futbol üzrə Polşa yığmasının baş məşqçisi Yeji Bjençek ilə müqavilənin müddəti uzadılıb. Yeni müqavilə 2021-ci ilin sonunadək nəzərdə tutulub. Qırx doqquz yaşlı mütəxəssis 2022-ci ildə Qətərdə keçiriləcək dünya çempionatının seçmə mərhələsində də komandaya rəhbərlik edəcək. Komanda dünya çempionatına vəsiqə qazansa, Y.Bjençekin müqaviləsi daha bir il uzadılacaq. Qeyd edək ki, Yeji Bjençek Polşa yığmasında 2018-ci ilin iyulundan çalışır.

# Dünya idmanı



## Növbə Riyad Mahrezə çatdı



"Mançester Siti"nin hücumçusu Riyad Mahrezin evi qarət olunub. Futbolçunun evindən ümumən 555 min avroluq əşya aparıldığı bildirilib. Xüsusən evdən bahalı saatlar oğurlanıb. Onların arasında dəyəri 255 min avrodan çox olan "Richard Mille", 44 min avroluq "Rolex Daytona" və 39 min avroluq "Rolex Day Date" var. Bundan başqa, onun 61 min avro nəğd pulu, 166 min avrodan artıq qiyməti olan "Cartier" bilərzikləri və futbol köynəkləri aparılıb. Məlumata görə, oğurluq zamanı futbolçu Mançesterin mərkəzindəki evində olmayıb. Qeyd edək ki, daha əvvəl "Tottenhem"in oyunçusu Dele Allinin də evi qarət edilib.

## Mətbuat xidməti şəkli pozdu




FİFA-nın mətbuat xidməti Twitterdə paylaşdığı şəkli pozub. Bu haqda "The Guardian" nəşrinin jurnalisti Barni Roney məlumat yayıb. TOP-5 liqasının "qol+ötürmə" sisteminin ən yaxşıları arasında "Borussiya"nın futbolçusu Ceydon Sanço da olub. Dortmundlu futbolçunun yayımlanan şəklində (formanın üzərində) ABŞ-da polisin qətlə yetirdiyi Corc Floydla bağlı şüar da ("Corca ədalət) əks olunub. Amma tezliklə FİFA bu şəkli pozub. Bir qədər keçdikdən sonra isə Sançonun başqa bir şəkli ilə paylaşım edilib. Xatırladaq ki, mayın 25-də amerikalı Corc Floyd polisin vəhşicəsinə davranması nəticəsində ölüb. Bundan sonra ABŞ-ın 20 ştatında kütləvi iğtişaşlar başlayıb.



***Üfüqi:***

2. Lankaşir qraflığını təmsil edən klub. 3. İdman geyimi. 5. Azərbaycanda rayon. 6. "NASCAR" yarışlarının keçirildiyi şəhər. 8. Məşhur qrossmeyster....Şort. 10. COVİD-19-virusu. 12. Ağırlıqqaldırma üzrə yığma komandamızın keçmiş üzvü, baş məşqçi...Məmmədov. 13. Formula 1 yarışlarında iştirak edən komanda, avtomobil markası. 14. "Qara dənizin əfsanəsi". 16. Ulduz basketbolçu.

***Şaquli:***

1. Dortmund "Borussiya"sının baş məşqçisi. 4. Su idman növü. 7. Qadağan olunmuş preparat, "idmanın düşməni". 9. "Zirə"nin və yığma komandamızın qapıçısı. 11. Burundi premyer liqasında çıxış edən klub. 12. VII Yay Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər. 15. Azərbaycan...İdmanı Federasiyası. 17. Basketboldan bəhs edən xəbər portalı.


**olimpnews.az - sizin saytınız**




## "Mövsümün davam etdirilməsinə ümid böyükdür"

İyunun ortalarında NBA-da çempionatın təqviminin müəyyənləşməsi ehtimal olunur. Artıq liqa rəhbərliyi təqvimlə bağlı müzakirələr aparır. İndiki məqamda yeganə çətinlik mövsümün bərpasının elan edilməsidir. Çox güman ki, iyunun əvvəlində bu məsələyə də aydınlıq gələcək. Amerikalı basketbol şərhçisi Brayan Uindhorst bildirib ki, mövsümün davam etdirilməsinə ümid böyükdür. Çünki koronavirus Amerikada pik dövrünü keçib.




## Gələn ay da tennis yarışları olmayacaq

İyula planlaşdırılan tennis turnirləri keçirilməyəcək. Belə ki, hələ pandemiyadan əvvəl bu ayda Bostad, Lozanna, Buxarest və Yurmalada ATP-nin (Peşəkar Tennisçilər Assosiasiyası), Hamburq, Nyu-Port, Los Kabose, Qştad, Umaq, Atlanta və Kitsbyueldə isə WTA (Qadın Tennisi Assosiasiyası) turnirlərinin təşkili nəzərdə tutulurdu. Qadın tennisçilər arasında keçiriləcək Karlsrue və Palermo yarışları hələlik ləğv edilməyib. WTA onlara dair yekun qərarını gələn ay bildirəcək. Bu iki turnirin başqa vaxta təxirə salınacağı istisna olunmur. İyun ayında, həmçinin avqusta planlaşdırılan turnirlərin taleyinə aydınlıq gələcək.


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.